Publisistik qeydlər

# Naxçıvanda gördüklərim məni valeh etdi

*Kim silsə gözlərindən xəyanət tozun əgər,*
*Bu yer üzü onun gözlərində tazə gülüstanə dönər.*

Arazın o tayında yaşayan tanınmış şair, Şirazlı Səid bu misraları Naxçıvan haqqında yazmışdı:

Bəli, bu eldə xəyanət bağışlanılmaz nöqsan, ən iyrənc hərəkət hesab edildiyindən, buralarda xəyanətkar tapmazsan. Hərdən mənə elə gəlir ki, müasir ədəbiyyatda xəyanətə, ikiüzlülüyə böyük anlamda, sidq-ürəkdən ilk dəfə açıq-aşkar yox deyən də elə naxçıvanlı Cavid Əfəndi olmuşdur. Naxçıvanda daşlaşmış bu mənəvi dəyər, əqidə onun tarixi qədər qədim və əbədidir. Şahidi və iştirakçısı olduğumuz zamanın özü bu həqiqətin birmənalı olduğunu təsdiq edən ən ədalətli yaddaş möhürüdür.

Millət atası Heydər Əliyevin diqqət və qayğısı sayəsində müəyyən məqam qazanmış bəzi dönüklərin sonradan Ali Sovetdə yerə daban doyüb səs-küy salaraq ulu öndərin çıxışına mane olmaları unudulanmıdır?!

Bəli, Kürreyi-ərzin əksər yerlərində taxt-tac naminə doğmalar göz çıxarıb baş vurduranda, uyquda xəyanətlə şah başları kəsiləndə Azərbaycanın Naxçıvan diyarında ərənlik, halallıq, əmin-amanlıq hər şeydən ucada dururdu. Bu yerlərdə səltənət də, mal-mülk də Vətən adlı müqəddəs anlama xidmətdə idi. Yəqin buna görədir ki, elə indinin özündə də buralarda ən əskik söz "xəyanət", ən ağır təhqir "xəyanətkar" damğasıdır.

Naxçıvana bu dəfəki səfərim ölkə rəhbərinin Naxçıvana iki günlük işgüzar ziyarətindən sonraya təsadüf etmişdi. Bəli, iki gün dünyanın diqqəti bu diyara yönəlmişdi. Axı iki qardaş dövlətin rəhbərləri burada görüşürdü: Türkiyə Cümhuriyyətinin Baş naziri Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevlə burada - Naxçıvanda bir sıra mühüm strateji məsələləri müzakirə edirdilər.

Naxçıvan! Müqəddəs, ulu diyar! Sədaqəti, etibarı, halal zəhməti və ziyalılığı ilə seçilən yurd yeri! Əsrlər boyu yaşatdığı mübarizliyi, qəhrəmanlığı, milli adət-ənənələri, ərənləri ilə seçilir Naxçıvan.

Güney və Quzey Azərbaycanın arasında çox mühüm coğrafi mövqedə yerləşən, Avropa, Asiya xalqlarının tarixi və müasir iqtisadi, mədəni əlaqələrində böyük rol oynayan Naxçıvanı haqlı olaraq "Şərqin qapısı" adlandırırlar. Bu müqəddəs yurd yerinin tarixi çox qədimdir. Tarixi mənbələrdə onun haqqında məlumatların 3500 ildən çox yaşı var. Orta əsrlərdə Şərqin böyük elm, mədəniyyət, ticarət və sənətkarlıq mərkəzləri kimi şöhrət qazanmış Naxçıvan dünya sivilizasiyasına dəyərli töhfələr vermişdir. Naxçıvanın hansı daşını, hansı qaya parçasını qaldırıb baxsaq, qeyrət qalamız olan ulu babalarımızın müdrikliyindən, hünər və igidliyindən bir nişanə görərik.

Günəşin qızılı şəfəqləri kimi bərq vuran Qarabağlar, Yusif ibn Küseyir, Xanəgah , Gülüstan türbəsi, qədim İpək yolu üstündə Aza körpüsü, Əlincə qalası və uzaq keçmişin yadigarı olan başqa abidələrimiz Naxçıvanın zəngin tarixi keçmişindən soraq verir. Təsadüfi deyil ki, Dyübya de Monper, Övliya Çələbi, Ker-Perter, Şantr və başqaları öz əsərlərində bu abidələr haqqında yüksək təəssüratla yazmışlar. Naxçıvan çox qədim zamanlardan Yaxın Şərqlə Cənubi Qafqazı birləşdirən körpü rolunu oynamışdır. Naxçıvan hər zaman öz coğrafi relyefi və iqlim şəraitinin rəngarəngliyi ilə də seçilmişdir.

Tanınmış sənətkarlar, görkəmli alimlər, ziyalılar vətənidir Naxçıvan. C.Məmmədquluzadə, M.S.Ordubadi, Ə.Qəmküsar, H.Cavid, Y.Məmmədəliyev, Ə.Sultanlı, Ə.Şərif, M.C.Cəfərov, M.Təhmasib, R.Təhmasib, M.Araz və başqaları bu gözəl diyarın yetirmələridir.

Biz, doğma Vətən duyğusunu yaşayaraq fəxr edirik ki, qədim Naxçıvan torpağı böyük siyasi xadim, ümummilli liderimiz Heydər Əliyevi yetiribdir. Heydər Əliyev əzəli-əbədi torpağımızın bizə bəxş etdiyi ən böyük şəxsiyyət, sözün əsl mənasında, xilaskardır. Ulu öndər çoxillik fəaliyyəti ilə Azərbaycana dayaq olmuş, keçmiş Sovetlər dönəmində, eləcə də müstəqillik illərində Azərbaycan Respublikasına rəhbərlik etmişdir.

Keçən əsrin 90-cı illərində mürəkkəb tarixi şərait yarandığı bir vaxtda Naxçıvan Azərbaycanda baş verən ictimai-siyasi prosesin mərkəzinə çevrildi.

1990-cı ilin sentyabrında Heydər Əliyev Naxçıvan MSSR Ali Sovetinin və Azərbaycan Ali Sovetinin deputatı seçildi. Bir il sonra isə o, Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışırdı. Bu dövrdə Naxçıvanı gərgin vəziyyətdən çıxarmaq, işğalçı Ermənistanın hücumlarından qorumaq lazım idi. Son dərəcə ağır olan mürəkkəb tarixi şəraitdə Heydər Əliyev misilsiz siyasi dühası və müdrikliyi sayəsində Naxçıvan camaatının mübarizliyinə və əzmkarlığına arxalanaraq doğma torpağı təhlükədən xilas etdi.





Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında iqtisadi əməkdaşlıq yarandı və Naxçıvan əhalisi genişlənən əlaqələr timsalında rahat nəfəs aldı. Qonşu İranla da münasibətlər normallaşdı. Naxçıvana İrandan qaz və elektrik xətləri çəkildi. Blokada şəraitində yaşayan Naxçıvana hər iki ölkə ilə əməkdaşlıq çox böyük fayda gətirdi.

1993-cü il iyun ayının 15-də xalqın təkidi ilə Azərbaycan rəhbərliyinə qayıdan Heydər Əliyev milli dövlətçiliyimizin xilaskarı oldu. Müstəqil Azərbaycan Respublikasına başçılıq edən Heydər Əliyev Naxçıvanı daim diqqət mərkəzində saxladı və bunu dövlət məmurlarına da tövsiyə etdi. O, rəhbər işçilərə də tapşırırdı ki, Naxçıvana daim xüsusi diqqət göstərilməlidir.

Bu gün Naxçıvanda olan hər bir kəs bu qədim diyarın gözəlliyinə heyran qalır. İndi 90-cı illərdəki Naxçıvandan heç bir əsər-əlamət qalmayıb. Muxtar Respublikanın Ali Məclisinin sədri Vasif Talıbovun rəhbərliyi ilə Naxçıvanda böyük tikinti və abadlıq işləri aparılır. Onu da deyim ki, bu il ulu öndər Heydər Əliyevin şərəfinə Naxçıvan Ali Məclisinin sessiyasının qərarı ilə muxtar respublikada "İnkişaf və tərəqqi" ili elan olunmuşdur. Burada təkcə 2008-ci ildə ulu öndər Heydər Əliyevin 85 illik yubileyi ilə əlaqədar 85 adda müxtəlif tipli obyektlərin inşa edilib təhvil verilməsi planlaşdırılmışdır ki, bu proses ilin sonuna kimi başa çatacaqdır. Ulu öndərin ölkəyə 35 illik rəhbərliyinin şərəfinə Naxçıvan televiziyasında yeni kanal – "Kanal-35" fəaliyyət göstərir.

Bəli, naxçıvanlılar fəxr edə bilərlər ki, onlar Heydər Əliyevin ideyalarını burada uğurla həyata keçirən dövlət adamını özlərinə rəhbər seçiblər. Bu gün Naxçıvan küçələri ilə addımlayan hər bir kəs özünü hər hansı bir Avropa ölkəsində hiss edir. Şəhərdə olan təmizlik, səliqə-sahman göz oxşayır. Əzəmət və qürur rəmzi olan Heydər Əliyev muzeyi və onun qarşısında ulu öndərin ağ mərmərdən ucalan büstü insanda iftixar hissi doğurur. Şəhər mərkəzindəki Dədə Qorqud meydanı naxçıvanlıların ən sevimli istirahət yerlərindəndir desəm, heç də yanılmaram. Son illərdə inşa edilən bir-birindən yaraşıqlı tikililər öz gözəlliyi və memarlıq üslubu ilə zövq oxşayır. Şəhərdə ən müasir üslubda tikilmiş beşulduzlu "Təbriz" mehmanxanası, Naxçıvan Uşaq Bərpa Mərkəzi və Turizm İnformasiya Mərkəzi, Naxçıvan Dövlət Universitetinin, Xarici İşlər Nazirliyinin Naxçıvan İdarəsinin yeni binası, muxtar respublikada yeganə olan tibb məktəbinin yenidən qurulmuş binası, nəinki burada, eyni zamanda, bölgədə analoqu olmayan Diaqnostika Mərkəzi, Elektron kitabxana və onlarca digər yaraşıqlı binalar şəhərə xüsusi yaraşıq və möhtəşəmlik verir. Qürur duyulacaq hal budur ki, bu cür quruculuq işləri təkcə şəhərin mərkəzində deyil, rayonlarda da aparılır. Məsələn, Culfa rayonunda tikilən Mərkəzi Xəstəxana, Babək rayonundakı "Duzdağ" Fizioterapiya Mərkəzi, Şərur rayonunda inşa edilən xəstəxana şəhərciyi, yaşayış binaları, məktəb, səhiyyə obyektləri Naxçıvanda sosial məsələlərin həllinin ciddi diqqət mərkəzində olduğunu göstərir.

Ulu öndər Heydər Əliyevin tövsiyələrinə əməl edən, bu yolda böyük əmək sərf edən Vasif Talıbovun işgüzarlığı, qətiyyəti, prinsipiallığı sayəsində qədim və əzəli Azərbaycan torpağı olan Naxçıvan Muxtar Respublikası günü-gündən gözəlləşir. Son illərdə bu region elə bir inkişaf səviyyəsinə qədəm qoyub ki, adamı istər-istəməz heyrət bürüyür. Muxtar respublikada işgüzar əhval-ruhiyyə var. Hamı iş üstündədir, qurub-yaradır, yeniliklərə geniş meydan verilir. Bu ondan irəli gəlir ki, burada sağlam ab-hava, işgüzar mühüt formalaşmışdır.

Məlum olduğu kimi, Azərbaycan cinayətkarlığa qarşı mübarizədə, habelə baş vermiş cinayət faktlarının açılma faizinə görə MDB məkanında ön sırada qərar tutub. Bu mənada Naxçıvan MR-də vəziyyət daha ürəkaçandır. Muxtar respublikada olarkən əhalinin nikbin əhval-ruhiyyəsi xüsusilə diqqətimi cəlb etdi. Naxçıvan MR-də cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə aparıldığı üçün burada cinayət halları artıq yox dərəcəsindədir.

Uzun illər elektrik enerjisinin və təbii qazın verilməsindən hədsiz əzab və əziyyət çəkən naxçıvanlılar məhz ölkə rəhbəri cənab İlham Əliyevin gündəlik qayğısı və gərgin səyi, işgüzarlığı nəticəsində bu bəladan qurtulmuşlar. Təsadüfi deyil ki, yeni tikilən və bərpa olunan elektrik stansiyalarının fəaliyyəti nəticəsində indi Naxçıvan nəinki özünü elektrik enerjisi ilə tamamilə təmin edir və hətta bir hissəsini qardaş Türkiyəyə ötürür. Uzun fasilədən sonra Naxçıvana təbii qazın verilməsi də bərpa olunmuşdur. Hazırda qazlaşma prosesi davam etdirilir.

Bu gün muxtar respublikanın rəhbərliyinin apardığı quruculuq işlərinin şahidi olaraq deyə bilərəm ki, ölkəmizin sürətli sosial-iqtisadi inkişafı özünü Naxçıvanın timsalında daha yaxşı şəkildə göstərir. Naxçıvan MR-də bu inkişafı yüksək dəyərləndirən Prezidentimiz cənab İlham Əliyev buradakı işlərdən fərəhlənərək demişdir: "Azərbaycanın hər bölgəsində sosial məsələlərin həllinə çox böyük diqqət göstərilir. Çox sevindirici haldır ki, Naxçıvanda da bu sahəyə böyük diqqət göstərilir, sosial məsələlərin həllində böyük uğurlar əldə edilibdir...O ölkələr ki, inkişaf edib, güclü iqtisadi potensiala malikdir, təbii ki, orada sosial məsələlərə də diqqət göstərilir. Bizim məqsədimiz ondan ibarətdir ki, Azərbaycanda bütün sosial məsələlər tezliklə öz həllini tapsın və Naxçıvanın timsalında bunu görürük.

...Muxtar respublikanın inkişafı üçün həm yerli rəhbərlik, həm də mərkəzi hökumət nə lazımdırsa edir, bundan sonra da edəcəkdir. Bu siyasət bizə ulu öndər Heydər Əliyevdən qalıbdır. Onun fəaliyyəti, siyasəti nəticəsində bütün ölkə inkişaf edib, o cümlədən bütün dövrlərdə. O həmişə deyərdi ki, Naxçıvana daim xüsusi diqqət göstərilməlidir. Naxçıvan Azərbaycanın qədim diyarıdır, qədim torpağıdır, strateji əhəmiyyətə malikdir və mən çox şadam ki, burada işlər yaxşı gedir".

Bəli , bu, Naxçıvan MR-də aparılan quruculuq işlərinə verilən ən yüksək qiymətdir.

Bu gözəl məkanda olarkən sözlə ifadə edilə bilməyəcək gözəlliklərin şahidi oldum. Buradakı insanların saflığı, mehribanlığı, səmimiyyəti məni heyrətləndirdi. Bir daha inandım ki, bu qədim diyar belə məğrur və dəyanətli övladlarının gücü ilə daha da inkişaf edəcək, dünyanın ən gözəl guşələri sırasında öz yerini tutacaqdır.

Naxçıvanda gördüklərimi qələmə alarkən bir müdrik fikir yadıma düşdü: Gəldim, gördüm, yazdım... Görmək, duymaq və yaşantıları qələmə almaq xeyirxah işdir. Bu mənada Naxçıvanda gördüklərim məndə xoş təəssürat yaratdı. Naxçıvanın qədimliyini abidələrində, müasirliyini isə yeniliklərdə, quruculuq işlərində gördüm. Naxçıvanın bu günündə daha önəmli sabahlarını gördüm. Çünki burada hamı adi vətəndaşdan tutmuş yüksək çinli məmura qədər, yalnız bir amala xidmət edir: unudulmaz Heydər Əliyevin doğma şəhəri Naxçıvan o böyük şəxsiyyətin adına layiq qurulmalıdır! Və bir də ölkə Prezidenti İlham Əliyevin etimadı doğruldulmalıdır!

Bəli, ulu öndərimiz Heydər Əliyevin Naxçıvanı daha gözəl, daha yaraşıqlı , daha firavan görmək arzusu Heydər Əliyev məktəbinin layiqli davamçısı və Azərbaycan Prezidentinin sadiq, etibarlı silahdaşı olan Vasif Talıbov tərəfindən inamla, uğurla həyata keçirilir.

Sonda Naxçıvanda eşitdiyim bir fikri xüsusilə vurğulamağı vacib hesab edirəm: Vasif Talıbov gündəlik iş rejimini elə qurub ki, elə bil, bu vəzifəyə o, bu gün təyin edilib. Adətən, vəzifəyə təyin olunan bəzi şəxslər bir müddət özünü göstərir və sonra arxayınlıq yaranır...

Burada isə tamam başqa cürdür. Hər gün, hər saat, hər an ulu öndər Heydər Əliyevin tövsiyə və tapşırıqlarına uyğun olaraq yeni coşqu, yeni həvəslə işə başlanılır. Odur ki, Naxçıvan hər gün dəyişir, gözəlləşir və möhtəşəmləşir.

***Mübariz SƏFƏROV,***
***yazıçı-publisist, professor***